**UOT 82-09**

# ŞƏFİQƏ ƏFƏNDİZADƏNİN PUBLİSİSTİKASINDA İCTİMAİ-SİYASİ MƏQALƏLƏR

**Humay MƏMMƏDOVA***

***Açar sözlər:*** *Şəfiqə Əfəndizadə, məqalələr, publisitika, qadın problemi.*

**Giriş**

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda qadın təhsili uğrunda mübarizənin geniş yayılmasında, qadın məktəblərinin yaradılmasında, burada təlim-tərbiyə işlərinin təşkilində mütərəqqi qadın pedaqoqlar- Hənifə xanım Məlikova, onun qızı Qəribsoltan xanım, Şəfiqə xanım Əfəndizadə, Xədicə xanım Ağazadə, Ədilə xanım Şahtaxtinskaya, Səkinə xanım Axundzadə, Rəhilə xanım Hacıbabayeva, Nabat xanım Nərimanova, Gövhər xanım Qazıyeva və digərlərinin böyük xidmətləri olub. Çar mütləqiyyəti və mühafizəkar qaragüruhçu qüvvələr tərəfindən onlara qarşı edilən şiddətli təzyiqlərə baxmayaraq, həmin maarifçi qadınlar azərbaycanlı qadınların savadlanması uğrunda fədakarcasına çalışıb, bacarıq və istedadlarını əsirgəmək pedaqoji fəaliyyətlərini davam etdiriblər. XX əsrdə Azərbaycan qadınları arasında təhsil, maarif və mədəniyyətin yayılması uğrunda fədakarcasına çalışmış maarifpərvər qadınlardan biri də Şəfiqə xanım Əfəndizadədir. Şəfiqə xanım Əfəndizadə Azərbaycan ictimai fikrinə, Azərbaycan qadınının maariflənməsinə öz dəyərli töhfələrini vermiş qadınlardan biri, Zaqafqaziyada ilk Azərbaycan dili müəlliməsi, ilk Azərbaycan qadın jurnalisti və publisisti olmuşdur. O, XX əsrin əvvəllərində fəaliyyətə başlamış bir ziyalı olaraq, qadınlarda milli şüurun daha da güclənməsinə, savadsızlığın, cəhalətin, qadın hüquqsuzluğunun aradan qaldırılmasına bütün gücünü sərf etmiş, istər pedaqoq, istər jurnalist, istərsə də publisist kimi bu yolda əzmli addımlarla irəliləmişdir.

Tərəqqipərvər, millətsevər ziyalılarımızdan H.B.Zərdabi, H.Z.Tağıyev, S.M.Qənizadə tez-tez qız məktəbinə gələr və öz dəyərli məsləhətlərini verərdilər. Bir gün də H.B.Zərdabi Şəfiqə xanımın dərs dediyi otağa daxil olub və əlindəki məcmuəni ona uzadaraq deyib: "Qızım, bu faydalı məcmuədir. Qızlarımıza bundan da oxuyun".

H.Zərdabinin məktəbə "Dəbistan"ı gətirməsi Şəfiqə xanımın da jurnalla əməkdaşlığına yol açdı. Müəllimə xanım nəinki özünün, hətta şagirdlərinin yazılarının da bu jurnalda çap olunmasına şərait yaratdı. "Dəbistan"ın yeddinci sayını Şəfiqə xanım daha böyük sevinclə qarşıladı və məktəbə gətirdi. Burada onun şagirdi Nabat Nərimanovanın məqaləsi dərc olunmuşdu.

Göründüyü kimi, burada bir balaca yanlışlığa yol verilib. Nabat xanımdan əvvəl "Dəbistan"la əməkdaşlığa Şəfiqə xanım başlamışdı. Şəfiqə xanımın tövsiyələri nəticəsində şagirdi Nabatxanımın da məqaləsi jurnalda çap olunmuşdu.

Ş.Əfəndizadənin "Dəbistan"la əməkdaşlığı haqqında həmin əsərdə belə məlumat verilir: "İlk Azərbaycan qadın jurnalisti Şəfiqə Əfəndizadə bu məcmuədə (1906-1908-ci illərdə) fəal iştirak etmişdir". Əlbəttə, o zaman qadınların mətbuatla əməkdaşlıq etməsində də maarifçiliyin çox böyük rolu oldu.

Qeyd edildiyi kimi, Şəfiqə xanım həm də ilk azərbaycanlı qadın jurnalist hesab edilir. O, dövri mətbuatda fəaliyyətinə "Şərqi-Rus" qəzetinin 16 aprel 1903-cü il tarixli 7-ci nömrəsində nəşr olunmuş "Maarifpərvər rüf`ətli Məhəmməd Ağa Şaxtaxtinski hüzuri-alilərinə" adlı yazısı ilə qədəm qoyur. (3, s. 10)

Bu yazılarında Şəfiqə xanım dövrün ictimai-siyasi həyatında baş verən mühüm hadisələrə işarə edir, qadın hüquqsuzluğu və savadsızlığından, bu savadsızlıq üzündən millətin gələcəyində

***AMEA akad.Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Türk filologiyası şöbəsinin kiçik elmi işçisi, humaynew@yahoo.com*

baş verə biləcək fəlakətlərdən, qaçqın problemi, uşaq təlim və tərbiyəsi, məktəb həyatı və s. kimi mühüm problemlərdən bəhs etməklə kifayətlənmir, həmçinin bu problemlərin aradan qaldırılması yollarını arayaraq, dövrün ziyalılarını və maarifpərvərlərini birliyə, həmrəyliyə, köməyə səsləyir.

Ş.Əfəndizadənin qadınların acınacaqlı vəziyyətindən bəhs edən məqalə və hekayələri onun özü üçün də böyük çətinliklər yaradır, dəfələrlə bu yazılarına görə təhdid olunur.

1923-cü ilin noyabr ayında Azərbaycan qadının mətbuat həyatında mühüm bir hadisə baş verir. KP MK Qadın şöbəsinin orqanı olan "Şərq qadını" jurnalı öz fəaliyyətinə başlayır. Redaktoru Ayna Sultanova olan bu jurnalın redaksiya heyətində Azərbaycanın ilk qadın jurnalisti və publisisti olan Şəfiqə xanım Əfəndizadə də yer alır və jurnalın bədii ədəbiyyat şöbəsinin təyin edilir.

Şəfiqə xanım "Şərq qadını"nda "Qız ilə anası arasında mühavirə", "Bəhirədən Münirəyə", "Al qırmızı kofta", "İki sima", "Rəna", "Evlənmək" kimi hekayələri Azərbaycan qadınının həyatını əks etdirir, onları cəhalətlə, əsarətlə mübarizəyə səsləyir.

XX əsrin əvvəllərində Azərbaycanda baş verən bütün hadisələrə münasibət bildirən, cəmiyyətin ictimai-siyasi həyatında iştirak etməyə çalışan Şəfiqə xanım fikir və mülahizələrini, təklif və rəylərini xalqa çatdırmaq üçün mətbuat orqanları ilə də əməkdaşlığı unutmurdu. Azərbaycanın ilk qadın jurnalistlərindən olan Şəfiqə Əfəndizadə ilk mətbu çıxışını "Şərqi-rus" da edib.

Ş.Əfəndizadə həm bir jurnalist, həm də bir pedaqoq kimi maarifin, elmin əhəmiyyətini "Dəbistan", "Rəhbər", "Məktəb" jurnallarında təbliğ edərdi. Hər üç jurnalın nəşrində Şəfiqə xanım Əfəndizadənin çox böyük rolu olub. Şəfiqə xanım Əfəndizadə zəngin publisistik irsə malikdir. Müəllifin publisistik əsərlərini mövzu baxımından aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. İctimai-siyasi məqalələr.
2. Uşaq mövzusunda yazılmış məqalələr
3. Felyeton və məqalələr
4. Xatirələr

Publisistin yaradıcılığında ictimai-siyasi məqalələri daha çox üstünlük təşkil edir. Müəllifin ictimai-siyasi məqalələri mövzu baxımından müxtəlifdir. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ailə, tərbiyə, əxlaq, qadının ailədə və cəmiyyətdəki mövqeyi, erkən yaşda evlilik, evlilikdə qadınların söz haqqı, azad seçim, analıq və s. kimi mövzulu məqalələr. "Tərbiyeyi-Beytiyyə. Təsiri-ailə", "Tərbiyeyi-Beytiyyə. Təsiri-Həmnişinan" məqalələr bu mövzuda yazılmış məqalələrə nümunə ola bilər.

Bu məqalələrdə publisist yazıçı hər daim qadınların mövqeyindən çıxış etmiş, cəmiyyətdə qarşılaşdığı qadına qarşı haqsızlıqları, bədbəxt qadın talelərini əks etdirmiş və əzilən, xor görülən, haqqı tapdalanan hər bir qadının adından səsini ucaltmağa qorxmamışdır. Yazdığı hər bir məqalə ilə, göstərdiyi hər bir ictimai fəaliyyəti daim qadın hüquqlarının qazanılması, qadınlara qarşı olan ədalətsizliklərə, amansızlıqlara qarşı çıxmış və mübarizə aparmışdır. Sözün həqiqi mənasında Şəfiqə xanım mübariz ruhlu qadın fədaisi olmuşdur.

Məsələn "Tərbiyeyi-Beytiyyə" adlı məqaləsində insan üçün ən vacib tərbiyənin məhz ev tərbiyəsi olduğunu qeyd edir. Hər bir uşağın ilk müəllimi onun valideynləridir. Çünki insan əxlaq və davranışına dair keyfiyyətləri ailədən, ev tərbiyəsindən əldə edir. Müəllifin fikrinə görə o şəxslər ki, uşaqlarına təlim və tərbiyə əxz edəcəklər, vacibdir ki, o şəxslər özləri əxlaq və tərbiyə əldə etməlidirlər. Firəngistan padşahı Napoleon bir məşhurə və elmli qadına sual verir ki, "Xalqın gözəl tərbiyəli olması üçün nə sərəncam vermək lazımdır?" Qadın cavab verir ki, elmli və savadlı analar lazımdır ki, gərək çalışıb səy göstərəsiniz ki, analar tərbiyəli olsunlar, ta ki, öz balalarına tərbiyə və savad verməyə qadir olsunlar. Hükəmalar deyiblər: "Bir tərbiyə və savadlı ana yüz məktəb müəllimindən üstündür" ( 4, s.39).

2. Maarifpərvər, cahilliklə mübarizə, elmsizlik, qadınların savadlanması, qadınların ictimai məsələlərdə fəallığa sövqü, qadın azadlığı mövzusunda yazılmış məqalələr. Şəfiqə Əfəndizadənin ictimai-siyasi publisistikasında sayca ən çox məqalə məhz bu bölümə aid olanlardır. Yaradıcılığının hər mərhələsində qadınların savadlanması, təhsil haqlarının tam bərpa olunması, cəmiyyətdə qa-

dının mövqeyini yüksəklərə qaldırmaq, qadın problemlərinə işıq tutmaq ən böyük qayəsi olmuşdur. Bu mövzuda müəllifin müxtəlif mətbu orqanlarda nəşr olunmuş bir sıra məqalələri vardır. "Bir çox ümidlərimiz", "Dirilik və varlıq qadınlar ilədir", "Qadınlarda dirilik və nöqsanat", "Mövqeimiz və ehtiyacımız", "Böylə zülmü Allah götürməz", "Ölülər" haqqında bir müsahibə", "Hürriyyət və qadınlar", "Kazandakı Ümummüslimələr syezdi", "İslamların, Türklərin hər dürlü təaliləri qadınların tərfi-səviyyəsinə vabəstədir", "Analar, qızlarınızı oxudunuz", "Xanımlara müjdə", "Şərq qadınları", "Möhtərəm müəllim" və s.

"Türklərin hər dürlü təaliləri qadınların tərfi-səviyyəsinə vabəstədir" adlı məqalədə İslam dinində qadının mövqeyindən bəhs edir. Müəllif qeyd edir ki, islam və türk cəmiyyətinin inkişafı yalnız qadınların cəmiyyətdəki mövqeyini gücləndirməklə mümkün ola biləcəyindən bəhs edir:

"İslamların irəli getməsini, əsasımızın möhkəm və mətin olmasını, təşkilatımızın əbədilik olmasını istərsək, tərəqqiyyatımız üçün də məktəblərdən başlamaq ilə kifayətlənməməliyiz. Bunun həpsindən əvvəl qadınlarımızın həyatını islah etməliyiz ki, onlar da çocuqları, çocuqlar da böyüdüklərində hökümət və millət halını islah etsinlər" (4, s.125).

Daha sonra isə publisist islamdakı qadın hüquqların təhrif edilərək cəmiyyətdə yanlış tətbiq olunduğunu və islamda qadına verilmiş haqq və hüquqların əllərindən alınaraq yerinə din adı ilə qadağalar gətirmişlər.

"Şimdiyə qədər zülm və istibdad altında əsir düşmüş qadınlar şimdi hüquqlarını tələb ediyor. Və qismən də istehsal etmişdir. İslamiyyət qadına hər türlü hüququ vermişdir, heç bir haqq yoxdur ki, qadına verilmiş olmasın. İslamiyyətdə qadın cəmiyyəttə daxildir. İslamiyyətdə qadın çalışmaq səlahiyyətinə haizdir. Zaman qadına haqqını, mövqeyini iadə edəcəkdir, bu, müqəddərdir". (4, s.126)

Müəllif məqaləsində cəmiyyətdəki qadın problemlərini açıq şəkildə əks etdirir və həlli üçün də bir sıra çıxış yolları təklif edir:

"Qadın olduğum üçün cəhətlə qadınların hər halından xəbərdəram. Qadınlarımızda böyük bir qabiliyyət görüyorum, əgər təhsili-mükəmməl, əsas məcburi olub bir az qadınlarımız üçün çalışsa, mədari-iftixarımız olacaq nə böyük qadınlar, nə şöhrətli ədibələr, nə müşfiq validələr, nə xeyirli mürəbiyyələr çıxar! Əlimizdəki məadindən istifadə etmək yolunu bilmiyor və ya düşünmüyor, daha doğrusu nəzəri-e`tibara almaq istəmiyoruz. Xilqətin meydana gətirməyə müvəffəq olduğu ən böyük gözəlliyi qapayoruz, istibdadın cəzasını çəkiyoruz" (4, s. 126).

Müəllif məqalələrində kişilərin əsrlərdi etdikləri zülmlərin və bu zülmlər nəticəsində millətimiz çəkdiyi zərərləri düşünərək fərqinə varmasını, cəmiyyətimizin inkişafı üçün qadınlara şərait yaradılmasını, qadın cəmiyyətlərinin təşkil edilməsini, təhsil müəssisələrinin açılmasını, qadınların fəaliyyət göstərə biləcəyi işlərə yönəldilməsini və s. kimi təkliflərlə çıxış edir. Bu baxımdan Cəlal Nuri bəyin Türkiyənin türk xanımlarına xitabən Rusiyada yaşayan türk xanımları haqqındakı məqaləsini nümunə göstərərək Rusiyadakı qadınların daha yaxşı yol aldıqların və islamın ən mütərrəqi qadınlarına çevrildiklərini qeyd edir. Əgər Rusiyadakı islam qadınları bunu bacardığı kimi bizim qadınlarımızın da öhdəsindən gələ biləcəyini söyləyir.

Qadın və kişinin paralel tutulmadığı cəmiyyət süquta, cahilliyə məhkumdur:

"Dünyada erkəklərinin tərəqqi edib də, qadınlarının hali-tədənnidə qaldığı bir millət yoxdur. Qadın başqa, erkək başqa bir millət olamaz. Bir millətin nisfi-müzəkkəri nisfi-müənnəsindən müstəqil yaşayamaz. Qadın erkəyi, erkək qadını ikmal və tamam edər". (4, s. 127)

Bu təkliflərin dəyərləndirilməsi cəmiyyətdəki qadın problemlərinin ciddi şəkildə azalmasına səbəb demək idi. Bu baxımdan Şəfiqə xanımın başlatdığı bu təşəbbüs Azərbaycan qadının cəmiyyətdə özünü sübut və təsdiqi üçün atılmış çox mütərəqqi bir addım idi. Qadın məsələlərinin ilk dəfə məhz bir qadın tərəfindən səsləndirilməsi, qələmə alınmasının özü belə dövrü üçün çox böyük bir hadisə idi. Bu hadisə böyük bir dalğaya çevrilərək bütün Azərbaycanı bürüdü. Qadınlar aldığı bu dəstəklərdən ilhamlanaraq, ürəklənərək illərlə susduqları, qorxduqları arzularının arxasınca getməyə başladılar. Təhsil almağa, çalışmağa başlayaraq ən böyük haqlarını geri almaq üçün səy göstərdilər.

"Analar, qızlarınızı oxudunuz" adlı məqalədə müəllif üsyankar şəkildə həmcinslərinə səslənərək övladlarının gələcəyi naminə, səadəti naminə qızlarını məktəbə göndərməyə, onları təhsil almağa şövq etməyi və bu haqlarının onların əlindən almamağa səsləyir.

"Dirilik və varlıq qadınlar ilədir" başlığı ilə başlayan "Şərq qadınları" adlı məqaləsində Şəfiqə xanım erkəklərlə qadınların cəmiyyəti-bəşəriyyətin iki qolu olduğunu və cəmiyyətin inkişafı naminə müştərək çalışmalı olduğunu yazır.

Qadın azadlığı haqqında bəhs edən müəllif "Təbiidir ki, fərdi-insani həqqi-həyata, həqqi-tənəffüsə, həqqi təkəllümə nasıl malik isə, qadın dəxi hüriyyəti-şəxsiyyətə öyləcə malik olmalıdır, çünki qadın da insandır, insan olduğu üçün də hürrdür. Hürr olduğu üçün də bir əqidə, bir yol tutmalıdır"deyə ifadə edir (4, s.58). Lakin, təəssüflə cəmiyyətdəki vəziyyətin cari durumunun acınacaqlı halda olduğunu, qadınların əsrlərlə həqqi-həyat və hürriyyətdən məhrum olduğunu qeyd edir.

Müəllifin "Kazandakı Ümummüslimələr syezdi" adlı dörd məqaləsində müxtəlif tarixlərdə keçirilmiş məclislərdə müzakirə olunmuş məsələlər və qəbul edilmiş qaydaların qısa icmalını vermişdir. Bu məclislərdən ilk ikisi qadın haqq və hüquqlarının müəyyənləşdirilməsi və qəbul edilməsi haqqında, digər ikisi isə siyasi-ictimai məsələlərə həsr olunmuşdur. Bu baxımdan biz ilk iki məclis haqqında olan məqalələri təhlil etməyə çalışacağıq.

Moskvada baş tutan Ümummüslimələr syezdininə müzakirəyə daxil olan ən əhəmiyyətli məsələlər baxılması nəzərdə tutulmuşdur:

1) Qadınların şəriətdəki hüquqları;
2) Qadınların ailədə tutmuş və tutacaq yerləri;
3) Qadınların siyasi hüquqları;
4) Qadınların keçmişdəki ictimai mövqeləri
5) Qadınların Məclisi-müəssisana qatışmaqları və bunu felə çıxarmaq;
6) Qadınlara məxsus müəssisələr.

"Müslimələr syezdinin ikinci məclisi" adlı məqaləsində apreli 25-ində keçirilmiş ikinci iclas haqqında məlumatlar verilmişdir. Həmin iclasda bir sıra mühüm məsələlərin müzakirə olunduğu və qərarlar qəbul olundu:

1) İslam şəriəti ərlər və qadınlara müsavi dərəcədə baxıyor.
2) Şəriət islam qadınlarını heç bir seçkilərdən, həm siyasi, ictimai hərəkətlərə qarışmaqlarına mane olmuyor.
3) İslam şəriətində sətr yox.

Müəllifin qeyd etdiyi kimi, bu məsələlər iştirakçılar tərəfindən alqışlanaraq qəbul edilmişdir. İclasda həmçinin "Müslimələrin ailəvi və ictimai halları" da müzakirə olunaraq aşağıdakı qərarlar qəbul edilmişdir:

1) Ailədə ərlə qadın ikisi də müsavi bir hüquqla faydalansınlar.
2) Qızları ərə verəndə gərək Cənubi və Şimali Rusiyada 16 yaşından əksiknikah oxunmasın.
3) Nikah məclisində oğıan və qız hər ikisi də hazır olsunlar.
4) Nikah vaxtında oğlan və qızın sirayətli naxoşluqları olmadığını bildirən, əllərində tibbi şəhadətnamələri bulunsun.
5) Nikah vaxtında oğlan qızın üstünə bir də arvad almamağı iltizam edib qoysun. Əgər zor bir zərurət ilə evlənməli olsa, əvvəlki qadınını ayırıb ona nəvəqə versin.
6) Nikah vaxtında qadınların da istəmədikləri halda ərlərdən ayrılıb getməyə haqları olduğu nikah dəftərinə qeyd olunsun.
7) Ər ilə qadın ayrılan vaxtında əgər qadın istərsə, balalarını da özilə ala bilər. Balaları həddi-buluğa irişəndə nəfəqə və bala tərbiysəi üçün aqça atası tərəfindən verilsin.
8) Səkkiz yaşdan istər qız, istər ər bala oxuması məcburi olsun.
9) Dürlü yollar ilə qadın, qız arasında mə`rifət nəşr edilsin.
10) Oxu yaşına gəlməyən balalar üçün "Balalar bağçası", həm "Tərbiyə yurdları" açılsın.

11) Gərək kəndlərdə, gərək şəhərlərdə olsun, “Anaları saxlamaq” (Axrana materinstva) cəmiyyətləri açılsın. Qadınlar iki həftə balaya qədər, dörd həftə baladan sonra heç bir ağır işləməsin. (4, s.85)

Hər iki iclasda müzakirə edilmiş və qəbul edilmiş məsələrin qadınların cəmiyyətdə və ailədəki mövqeyi qanun və hüquqlarla qorunacağı bir sıra qanunların qəbul olunası baxımından cəmiyyətimiz üçün çox mühüm bir hadisə kimi tarixə keçmişdir.

“Hürriyyət və qadınlar” məqaləsində müəllif qadın haqlarını bir növ ictimaiyyətə hayqıraraq səslənir:

“Ey qare! Düşünmə, düşünmə, bil ki, qadın da insandır, insan olduğu üçün də hürrdür, hürr olduğu üçün bir əqidə, bir yol tutmalıdır.” (4, s.88)

Müəllifin əsrlərdir qadınlara qarşı edilmiş haqsızlıqların, haqq və hüquqlarının tapdalanmasının səbəbini qadınların hər daim bir növ insan deyil də qul olaraq görülməsində, kişilərin qadınları özlərinə tay tutmamasında, xor görülməsində görür. Halbuki qadın bəşəriyyətin özüdür, qadın nə qədər əzilərsə həmin cəmiyyətdə yetişən hər bir insan əzilər, haqlarını bilməz, cahilliyin qurbanına çevrilər. Qadın anadır, tərbiyənin beşiyidir, qadının savadsızlığı cəmiyyətin savadsızlığıdır. Bunu qəbul etməyən şərq insanı daim qadını əzmiş, onu  bir əşya olaraq görmüşdür. Bu gün ki, şərq geriliyinin tək səbəbi qadınlara qarşı ədalətsiz davranış və onları cəmiyyətdən təcrid etmək olmuşdur. Buna səbəb şərq kişisinin eqosunu, öz gücünü  qadın üzərində göstərməyə çalışması, qadınlar üzərində söz haqqının, hökmünün azalması qorxusundan irəli gələrək, qadınları hər zaman zor gücünə susdurmağa çalışması olmuşdur. Şəfiqə xanım bu məqalələri ilə bu cür haqsızlıqların hökm sürdüyü cəmiyyətdə qadın olmağın çətinliklərini, ana olmağın, övlad tərbiyə etməyin çətinliklərini göstərməyə çalışmış və çox uğurlu şəkildə bacarmışdır. Bu baxımdan hər bir Azərbaycan qadını cəmiyyətimizdəki bütün qadınlar üçün belə bir şərəfli xidmət göstərmiş, cəsarətli addımlar atmış və qadınların savadlanması uğrunda belə demək olarsa əsil mübarizə aparmış qadına çox şey borcludu. Lakin Şəfiqə xanımın başlatdığı missiya hələ bitməməlidir. Nə qədər ki, cəmiyyətdə tez-tez qarşılaşdığımız gender bərabərsizliyi problemləri, haqları əlindən alınmış və ya tapdanmış, zülmə məruz qalmış qadınlar olduqca, qadınlar sözün əsil mənasında kişilərlə bərabər haqq və hüquqlara sahib olmadıqca bu missiya bitmiş sayılmaz.

Məqalədə müəllif qadınlara mübariz ruhlu olmağı, illərdir tapdanmış haqlarını geri almağa, türk qadınına yaraşan hürriyyəti təqdis etməyə, qadınları birliyə, cəmiyyətdə özünü sübut etməyə səsləyir:

“Ey istibdadın ən böyük ağır yükü altında əzilən millətin anası olan qadın, ayıl, hürriyyətini təqdis et, durma! Cəmiyyətlər təşkil eylə, dərdlərini aç, tök, həmcins ana-bacılarını ittifaqa, ittihada çağır. Onlara milli, düz yolu, övlad tərbiyəsini göstər, analıq bayrağını çək, əməllərini təyin et, müqəddəratın həll olunan zaman sənin də gur səsin orada eşidilsin və əməl olunsun. Yaşasın Cümhuriyyəti-ənama qüvvət verən qadınlar! (4, s. 89).

3. Siyasi mövzulu və vətənpərvərlik ruhunda yazılmış məqalələr. “Şəvqət məclisi”, “Millətini sevən Allahı da sevər”, “Təəccüb deyilmi”, “Şamaxıda qadınlar seçkisi”, “Seçki və qadınlar”, “Yol əsnasında gördüklərim”, “Təşkilatın qadınlara təsiri”, “ Vətən bizim sevgili anamızdır” və s. siyasi və vətənpərvərlik mövzusunda yazılmış məqalələrdir.

“Seçki və qadınlar” və “Şamaxıda qadınlar seçkisi” adlı məqaləsində Şəfiqə xanım qadınların seçkilərdə iştirakından bəhs edir. Şamaxıda keçiriləcək  Bələdiyyə seçkisi üçün ilk dəfə iştirak edəcək müsəlman qadınları arasında rəhbərlik etmək vəzifəsinə göndərildiyi, qadınların bu seçkidə nizam intizam ilə iştirakından bəhs edir. Qadınların onlara tapşırılan vəzifələri yerinə yetirməkdə heç də kişilərdən geri qalmadığını qeyd edərək, onları cəmiyyətdə daha yüksək vəzifələri tutmasını təmənna edir.

“Vətən bizim sevgili anamızdır” adlı  vətənpərvər mövzulu məqaləsində müəllif həmşirələrinə səslənərək vətənin ağır günlərində mərd qadınların üzərinə böyük vəzifə düşdüyünü, kişilərlə bərabər qadınların da vətənə olan borcunu yerinə yetirmək zamanı olduğunu söyləyir. Qadınlara övlad-

larımızı milli ruh, milli tərbiyədə yetişdirməyi, vətən sevgisini aşılamalı olduğunu və vətənin istikbalının əslində biz qadınların əlində olduğunu və bu səbəbdən də hər bir qadın öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməli olduğundan bəhs edir. Bundan əlavə Şəfiqə xanım həmcinslərinə himmət toplayaraq əsgərlərə bayramlıq pay göndərmək qərarı alınır.

Şəfiqə xanımın yaradıcılığında qadın azadlığı ən aktual və daha çox müraciət etdiyi mövzu olub. Onun publisistik məqalə və hekayələrində əsasən qadına münasibət, qadının cəmiyyətdə rolu və s. məsələlərdən bəhs olunurdu. 1914-cü ildə xanım publisistin "İki yetim", yaxud Kərimin hümməti" və 1920-ci ildə "Qapıcı qızı" adlı bədii kitabı nəşr olunub.

C.Məmmədquluzadənin "Ölülər" pyesi ilk dəfə Bakıda 1916-cı ildə tamaşaya qoyulub. Tamaşa zamanı Şəfiqə xanım salonda bir qadının ağladığını görərək ona yaxınlaşıb. Nə üçün ağladığını soruşanda qadın "Bu ki, mənim həyatımdır, çəkdiyim əzablardır", - deyə həyəcanla cavab verib. "Ağlama, bacım. Bu, təkcə sənin yox, bütün Azərbaycan qadınlarının həyatıdır",- deyə Şəfiqə xanım onu sakitləşdirib. Bu hadisə onu çox təsirləndirib. "Açıq söz" qəzetində "Ölülər" pyesi haqqında məqalə yazıb.

**Nəticə**

Şəfiqə xanımın yaradıcılığında qadın azadlığı ən aktual və daha çox müraciət etdiyi mövzu olub. Onun publisistik məqalə və hekayələrində əsasən qadına münasibət, qadının cəmiyyətdə rolu və s. məsələlərdən bəhs olunurdu. 1914-cü ildə xanım publisistin "İki yetim", yaxud Kərimin hümməti" və 1920-ci ildə "Qapıcı qızı" adlı bədii kitabı nəşr olunub.

Şəfiqə xanım sonralar "Açıq söz", "İstiqlal", "Bəsirət" və "Əfkari-mütəllimin" kimi tanınmış mətbu orqanlarda müntəzəm çıxış etməyə başlayıb. Ş.Əfəndizadənin fikrincə, qadına hər şeydən irəli elm və təhsil lazımdır. O, savadı, bildiyi hər şeydən üstün tuturdu. Göstərdiyi xidmətlərə görə Şəfiqə xanımı dövrünün ən önəmli qadın publisistlərindən biri olduğunu qeyd edə bilərik.

XX əsrin əvvəllərində Azərbaycanda baş verən bütün hadisələrə münasibət bildirən, cəmiyyətin ictimai-siyasi həyatında iştirak etməyə çalışan Şəfiqə xanım fikir və mülahizələrini, təklif və rəylərini xalqa çatdırmaq üçün mətbuat orqanları ilə də əməkdaşlığı unutmurdu.

## ƏDƏBİYYAT


1. Axundov Fuad (2007). Savadlı millətin təməli-savadlı qadın: H.Z.Tağıyevin Bakıdakı qızlar məktəbi.
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası (2004). 2 cilddə. Bakı: Lider nəşriyyatı.
3. Məmmədov Sabir. (1960). Azərbaycanın maarifpərvər qadınları. Bakı: Azərnəşr.
4. Şəfiqə Əfəndizadə. (2017). Seçilmiş əsərləri (1903-1925). Bakı: "Elm və təhsil".
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: F.268, siy.10, iş 40
6. Səfərov Rafiq (2015 15 sentyabr).İlk maarifpərvərlərdən biri Şəfiqə xanım Əfəndizadənin pedaqoji fəaliyyəti haqqında bəzi qeydlər/ Kaspi, s.11.

### *РЕЗЮМЕ*

***Хумай Мамедова***

***Социально-политические статьи в публицистике Шафики Эфендизаде***

***Ключевые слова:*** *Шафика Эфендизаде, статьи, публичность, женская проблема.*

Данная статья посвящена Шафиге Эфендизаде, которая играет важную роль в азербайджанском обществе и в его политической жизни.

Она является первой женщиной, ставшей членом парламента Азербайджанской Республики, а также первой журналисткой на Южном Кавказе. Она была одной из самых активных женщин в республике. В то же время она работала стенографисткой в республиканском парламенте и представляла всех азербайджанских женщин.

Шафига Эфендизаде одна из первых женщин-журналисток в Азербайджане, которая впервые появилась в журнале «Шарги Рус».



### *SUMMARY*

***Humay Mammadova***

***Socio-political Articles in Shafiga Efendizade's Publicistics***

***Keywords:*** *Shafiga Efendizade, articles, journalism, women's problem.*

The present article devoted to the Shafiga Efendizadeh, the enlightener woman who plays a hot role in Azerbaijani society and political life. She is the first female employee of the Parliament of the Republic of Azerbaijan, as well as the first female journalist in the South Caucasus. She was one of the most active women in the Republic. Although he did not receive a higher education, he was engaged in a very valuable career as a publicist and educator. At the same time, she worked as a shorthandist in the Republican Parliament and represented all Azerbaijani women. Commenting on all the events that took place in Azerbaijan in the early twentieth century, Shafiga khanum, trying to participate in the socio-political life of the society, did not forget to cooperate with the media to convey their views, suggestions and opinions to the people. Shafiga Efendizadeh, one of the first women journalists in Azerbaijan, made her first press appearance in "Shargi-Rus".